# Ədalətin və sülhün təminatı əsas şərtdir



**Bu ayın 4-də Xankəndi-də, Azərbaycanın suveren ərazisində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) XVII Zirvə görüşü keçirildi. Bu mötəbər tədbirin ölkəmizdə üçüncü dəfə təşkil olunması Azərbaycanın beynəlxalq nüfuzunun, regional əməkdaşlıqda oynadığı rolun və diplomatik aktivliyin bariz göstəricisidir.**

ECO üzv ölkələrinin coğrafi mövqeyi və beynəlxalq çəkisi təşkilatın əhəmiyyətini daha da artırır. Bu ölkələr həm də qlobal səviyyədə önəmli nüfuza malikdir və enerji, ticarət, nəqliyyat və mədəni sahələrdə dünya miqyasında söz sahibidirlər. Təşkilata üzv dövlətlərin yerləşdiyi coğrafiya qədim İpək Yolunun keçdiyi marşrutla, həmçinin "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində formalaşan Orta Dəhlizlə üst-üstə düşür. Bu isə ECO-ya nəqliyyat və logistika baxımından strateji üstünlüklər qazandırır.

Zirvə görüşündə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif və başqaları təşkilatın rolunu yüksək qiymətləndirdilər. Onlar ECO ölkələrinin geosiyasi və iqtisadi nüfuzunun gücləndirilməsinin regional sabitlik və rifah üçün vacib olduğunu qeyd etdilər.

Bundan əlavə, tədbirdə iştirak edən ölkələrin əksəriyyəti həm də İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvüdür. Bu baxımdan, Xankəndidə keçirilən zirvə görüşü yalnız iqtisadi deyil, həm də mədəni və siyasi birlik baxımından əhəmiyyətli hadisəyə çevrildi. İƏT-in 57 üzvü arasında ECO ölkələrinin mühüm yeri var və bu təşkilatlar arasında əməkdaşlıq yeni geosiyasi konfiqurasiyanın formalaşmasına töhfə verir. Qeyd etmək lazımdır ki, hazırda dünyada gərgin geosiyasi proseslər gedir. Rusiya-Ukrayna müharibəsi, İsrail-İran münasibətlərindəki gərginlik, Hindistan-Pakistan arasındakı mübahisəli məqamlar Avrasiya məkanını təsir altında saxlayır. Belə bir zamanda Azərbaycanla qardaşlıq münasibətlərinə malik olan Pakistanın da bu proseslərdə mühüm mövqeyi var. Xankəndidəki ECO Zirvə görüşü bu baxımdan bir daha göstərdi ki, Azərbaycan təkcə regional deyil, həm də qlobal əməkdaşlıq müstəvisində aparıcı aktorlardan biridir. Bu cür toplantılar həm ölkəmizin beynəlxalq əlaqələrini gücləndirir, həm də regionda sabitlik və inteqrasiyaya xidmət edir.

Bundan əlavə, Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının XVII Zirvə görüşü təkcə iqtisadi inteqrasiya və regional əməkdaşlıqla məhdudlaşmadı. Bu platforma həm də Azərbaycanın milli maraqlarının beynəlxalq müstəvidə qətiyyətlə dilə gətirildiyi önəmli siyasi tribunaya çevrildi. Məhz bu kontekstdə, Prezident İlham Əliyevin çıxışı xüsusi əhəmiyyət kəsb etdi. Dövlət başçısı çıxışında Azərbaycanın regionda sülh və əməkdaşlıq təşəbbüslərini önə çəkməklə yanaşı, Qərbi Azərbaycan məsələsinə də toxundu və bu məsələdə ölkəmizin prinsipial və dəyişməz mövqeyini bir daha dünya ictimaiyyətinə bəyan etdi: "Keçən ay İslam Əməkdaşlıq Təşkilatının İstanbulda keçirilmiş Nazirlər Şurasının iclasında Ermənistandan zorla didərgin salınmış azərbaycanlıların qayıdış hüququna dəstək ifadə edən qətnamənin bütün 57 üzv ölkənin yekdil qərarı ilə qəbul olunmasını yüksək qiymətləndiririk".

Onu da qeyd edək ki, 1991-1992-ci illərdə və sonrakı dövrlərdə erməni işğalından əziyyət çəkmiş, məcburi şəkildə evlərindən didərgin salınmış Azərbaycan vətəndaşları mərhələli şəkildə artıq öz torpaqlarına dönür. Bu prosesin uğurla həyata keçirilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan ardıcıl siyasətin nəticəsidir. Vətən müharibəsində qazanılan Zəfər və onun simvolu olan "dəmir yumruq" bu iradənin təcəssümüdür.

Eyni zamanda, Prezident Xankəndidə keçirilən Zirvə çərçivəsində bir daha bəyan etdi ki, Azərbaycanın əsas məqsədi müharibədən sonra bölgədə dayanıqlı sülhün və inkişaf təmin etməkdir. Qarabağ Azərbaycanın suveren və inteqrasiya olunmuş hissəsidir. Dövlət başçısının sözləri ilə desək, Vətən müharibəsinin başa çatdığı gündən etibarən regionda yeni tarix səhifəsi açılıb, müharibələr və qarşıdurmalar geridə qalıb, qarşıda isə sülh, əməkdaşlıq və quruculuq dayanır.

Bu baxımdan Prezidentin Qərbi Azərbaycanla bağlı fikirləri də ədalətin bərpası və sabitliyin təminatı kontekstində təqdim olunur. Qərbi azərbaycanlıların öz doğma torpaqlarına qayıtması, onların hüquqlarının tanınması və bu prosesin qarşılıqlı hörmət əsasında tənzimlənməsi, bölgədə uzunmüddətli barışın əsas şərtlərindən biri kimi irəli sürülür. Qeyd edilməlidir ki, Qərbi Azərbaycan məsələsi heç bir halda Ermənistanda yaşayan insanların hüquqlarına qarşı yönəlməyib. Əksinə, Azərbaycanın mövqeyi beynəlxalq hüquq çərçivəsində bütün məcburi köçkünlərin, o cümlədən Qərbi azərbaycanlıların da öz tarixi yurdlarına qayıtmaq haqqının tanınmasına əsaslanır. Bu, regionda sabitliyin bərqərar olması üçün fundamental addımdır.

Prezidentin dediyi kimi, sülh sazişi imzalanarsa, bu, Qərbi azərbaycanlıların qayıdışını istisna etmir, onların hüquqlarının təmin olunması üçün hüquqi çərçivə formalaşdırır. Bu, həm Ermənistanla münasibətlərin normallaşması, həm də Cənubi Qafqazda sülhün bərqərar olunması baxımından həlledici məsələdir.

**Məlahət İBRAHİMQIZI,**
**Milli Məclisin deputatı,**
**Qərbi Azərbaycan İcmasının üzvü.**

Respublika .- 2025.- 6 iyul (№ 136).- S.8.